**ICTIMAI BIRLIKLƏRIN**
**"MƏDƏN SƏNAYESİNDƏ ŞƏFFAFLIĞIN ARTIRILMASI"**
**KOALİSİYASI**

## 2008 – Cİ İL ÜÇÜN FƏALİYYƏT PROQRAMI

*(2007-cı il oktyabrın 20-də keçirilən Ümumi Yığıncaqda əsas kimi qəbul edilib, 28 dekabr 2007-ci il tarixli Shura yiğincağında son əlavələr təsdiq olunub.)*

Bu sənəd beynəlxalq və regional səviyyədə müşahidə olunan dəyişiklikləri, ölkə daxilində qərarlaşmış tendensiyaları, strateji fəaliyyət istiqamətlərini, eləcə də koalisiya daxili ictimai rəyi nəzərə almaqla hazırlanıb.

### 1. CARİ VƏZİYYƏT

Hazırda MSŞT üzrə beynəlxalq miqyasda genişlənmə həm üfüqi və həm də şaquli əsaslarla davam edir. Hər iki istiqamətdə müşahidə olunan tendensiyalar təşəbbüsün beynəlxalq səviyyədə coğrafiyasının genişlənməsi ilə yanaşı, onun dərinləşdirilməsi və inkişaf etdirilməsi ücün qiymətləndirmə və monitorinqlərin aparılması sahəsində aşkar olan prinsiplərə söykənir. Regional kontekstdə təşəbbüsün əhatə dairəsinin genişlənməsi (EİTİ+) istiqamətində müzakirələr onun əsl mahiyyətini qismən təhrif etsə də postsosialist ölkələri üçün aktuallıq kəsb etdiyindən Azərbaycanda da diqqət mərkəzinə daxil olmaqdadır.

Bu dəyişikliklər və tendensiyalar Azərbaycanda mədən sənayesi gəlirlərinin artan templə çoxaldığı şəraitdə neft və qaz gəlirləri üzərində ictimai nəzarət və vətəndaş iştirakçılığı prosesinə məsul olan MSŞA Koalisiyası qarşısında yeni vəzifələr və tələblər qoyur. Bu mərhələdə məhz çoxsaylı və rəngarəng fəaliyyət dairəsinə malik olan üzvlərinin hesabına Koalisiya hökümətin və şirkətlərin hesabatlılığının artırılması istiqamətində fəaliyyətini daha səmərəli qurmaq üçün potensialını artırmalı, hədəflərini dəqiqləşdirməli və hədəfə yönələn təşəbbüslərini intensivləşdirməlidir. Bu isə cari ildə start verilmiş tədqiqat layihələrinin, siyasət sənədlərinin ictimai müzakirələrinin, əsasən gənclərə yönəlmiş maarifçilik fəaliyyətinin, müxtəlif auditoriyalar üzrə vəkillik fəaliyyətinin təşkilinin növbəti ildə də davam etdirilməsini zəruri edir.

2008-ci ilin seçki ili olduğunu nəzərə alaraq, prezidentliyə namizədlər, onların təmsil etdikləri siyasi partiyalarla əməkdaşlıq istiqamətində layihələrin həyata keçirilməsinə zərurət yaranır. Bu istiqamətdə layihələrin məqsədi prezidentliyə namizədlərin platformasında neft gəlirlərinin ədalətli böıgüsü, səmərəli idarəedilməsi və şəffaf istifadəsi üzrə Koalisiyanın təkliflərinin daxil edilməsi və onun təblığat vasitələrindən birinə çevrılməsidir.

Cari ildə MSŞA Koalisiyasının beynəlxalq və regional miqyasda diqqət mərkəzində olması əldə olunmuş nəticələrin Azərbaycan sərhədlərindən kənarda da yayılması və bir sıra ölkələr üçün önəmli təcrübə rolunu oynaması bu istiqamətdə fəaliyyətin növbəti il üçün də əhəmiyyətini artırır.

2007-cı ildə Koalisiya ACİ YF, Dünya Bankı tərəfindən maliyyələşdirilən layihələrinin, xüsusi resursları hesabına həyata keçirilən tədbirləri ilə özünün 2007-10-cu illəri əhatə edən strateji fəaliyyət planının birinci hissəsini uğurla başa çatdıırıb. Belə ki, bu müddət ərzində Koalisiya:

- Azərbaycan hökumətinin mədən sənayesi gəlirləri ilə bağlı açıqlanan hesabatlarını və bu hesabatları neft şirkətlərinin hesabatları ilə tutuşduran müvafiq audit şirkətlərinin rəylərini qiymətləndirib və özünün alternativ rəylərini ictimaiyyətə açıqlayıb;
- ARDNF-nun investisiya siyasətinin təkmilləşdirilməsinə dair Tövsiyyələr Paketi işləyib və aidiyyatı orqanlara təqdim edib;
- vətəndaş cəmiyyəti nümayəndələrinin, gənclərin, regionlarda yerli özünü idarəetmə orqanları və yerli QHT nümayəndələrinin və vətəndaşların məlumatlılığının artırılması məqsədilə Dəyirmi Masalar, seminarlar, TV-də tok-şouların, radioda isə radio-dialoqların təşkil edib;
- bir sıra istiqamətlər üzrə tədqiqat layihələrinin birinci mərhələsini yekunlaşdırıb, aktual 10 mövzu üzrə siyasət sənədlərinin işlənilməsinə start verib və onların yarısıüzərində iş başa çatıb;
- Memoranduma dəyişikliklər məqsədilə təkliflər işlənilib və onlar Hökümət Komissiyasının müzakirəsinə təqdim edilib;
- istər yerli, istər regional, istərsə də beynəlxalq tərəfdaşları ilə əlaqələr qurub və əməkdaşlıq edib, Yəmən, Qırğızıstan nümayəndələrinin Bakıya səfərinin təşkil edib və onların Azərbaycan təcrübəsi ilə tanışlığı üçün şərait yaradıb.

Nəticədə Koalisiyanın populyarlığı və nüfuzu xeyli artıb, üzvlərinin sayı 100-ü keçib. Üzvlüyə 30-dan artıq yeni müraciət daxil olub. Koalisiya vasitəsilə vətəndaş cəmiyyətinin təmsilçiləri bu təşəbbüsə dəstək verilməsi məqsədilə səfərbər olunub, onlar bu prosesin bərabər hüquqlu iştirkçılarına çevrilib və prosesə təsir imkanları qazanıblar.

Bütün bu uğurlarla yanaşı Koalisiya ötən dövrdəki fəaliyyəti zamanı bəzi çətinliklərlə də qarşılaşıb.Belə ki:

- MSŞT təşəbbüsünün mədən sənayesinin bütün sahələrində tətbiqinə nail olunmayıb.
- Şirkətlər tərəfindən hökümətə ödənişləri barəsində fərdi hesabatlılığa keçidi təmin edilməyib.
- Neft Fondunun Müşahidə Şurasında ictimai birliklərin təmsilçiliyinə nail olunmayıb.
- Bütün maraqlı tərəflərin iştirakı ilə Fəaliyyət Planının işlənilməsinə nail olunmayıb.
- MSŞT-nin tətbiqində insan və maliyyə resursları ilə təminat sahəsində çatışmazlıqlar tam aradan qaldırılmayıb.
- MSŞT barəsində əhalinin məlumatlılığını artırmaq üşün tələb olunan informasiya vasitələrinə çıxış məhdud olaraq qalıb.
- Vətəndaş içtirakçılığı sahəsində passivlik müşahidə olunub.

- MSŞT-nin fəaliyyət çərçivəsinin məhdudluğu xərcləmələr sahəsində şəffaflığın və hesabatlılığın təminatında problemlərin həllinə baryerlər yaradıb.

Bu çətinliklərin dəf edilməsi və yeni ideyaların, gələcək planların reallaşdırılması məqsədilə Koalisiya 2008-ci ildə aşagıdakı istiqamətlər üzrə fəaliyyətlərin qurulmasına önəm verir.

## 2. KOALİSİYANIN PRİORİTET FƏALİYYƏT SAHƏLƏRİ

### *1-ci Prioritet sahə: Dövlət orqanları və neft-qaz sektorunda fəaliyyət göstərən şirkətlərin hesabatlılığın və şəffaflılığın artırılmasıı*

Bu prioritet istiqamətin hədəfində dövlət orqanları və neft-qaz sektorunda çalışan şirkətlər durur. Bu hədəfə çatmaq üçün Koalisiya öz fəaliyyətində MSŞT Idarə Heyətinin, "Ödədiyini açıqla" Beynəlxalq Koalisiyasının tövsiyyələrinin, BMT-nin ümumi prinsiplər və dəyərlərə dair Baş Sazişinin, İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının Məcəlləsinin, Avropa Parlamentinin qərarlarını, Beynəlxalq Valyuta Fondunun büdcə va maliyyə sferasında şəffaflığın təminatı üzrə Məcəlləsinin, Qlobal Hesabatlılıq Təşəbbüsünün, Sosial Hesabatlılıq və Məsuliyyətlilik Standartlarının prinsiplərini əsas tutaraq mədən sənayesində fəaliyyət göstərən yerli və xarici şırkətlərin, aidiyyatı dövlət orqanlarının fəaliyyətində hesabatlılığının artırılması və şəffaflılığın yüksəldilməsi istiqamətində saəylərinin gücləndirəcəkdir. Bu istqamətdə fəaliyyətin hüquqi əsasını Azərbaycan Respublikasının Konstitusiyası, "Şəffaflılığın artırılması və korrupsiya ilə mübarizə" üzrə Milli Strategiya təşkil edəcəkdir.

Koalisiyanın bu prioritet sahəsində aşağıdakı istiqamətlərdə fəaliyyəti məqsədə uyğun hesab edilir:

- Azərbaycan Respublikası Dövlət Neft Fondunun (ARDNF) Müşahidə Şurasında ictimai birliklərin təmsilçiliyinə nail olunması;
- Neft sektorundan daxilolmalar barəsində ən azı ildə 1 dəfə parlamentdə hesabatlılığın təminatı;
- Qeyri-neft/qaz hasilat sənayesində şəffaflıq təşəbbüslərinə start vermək və bununla əlaqədar olaraq MSŞT coğrafiyasını həm regionlar və həm də sektorlar üzrə genişləndirmək məqsədilə maraqlı tərəflər və təsir qrupları formatında müzakirələrə başlanilması;
- Anlaşma Memorandumun tələblərindən irəli gələrək, mövcud hesabat sisteminin təkmilləşdirilmək məqsədilə tərəflər arasında müzakirələrə start verilməsi;
- Şirkətlərin, xüsusilə də Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin (ARDNŞ) fərdi qaydada hesabatlar təqdim etməsi məqsədilə Hökumət Komissiyasının və İctimai Birliklərin MSŞA Koalisiyasının təşəbbüslərinin birgə formatda genişləndirməsi.

***2-ci Prioritet sahə: ARDNF maliyyələşdirdiyi layihələrin monitorinqi və onların səmərəliliyinin qiymətləndiirlməsii***

ARDNF-nin maliyələşdirdiyi layihələr üzrə xərcləmələrin ictimai nəzarətdən kənarda qalması onların səmərəliliyi və şəffaflılığı haqqında cəmiyyətin məlumatlılığının artırılması sahəsində problemlər yaradır ki, bu da MSŞT-nin Azərbaycanda tətbiqi sahəsində uğurlara kölgə salır. Odur ki, Koalisiya hesab edir ki, ARDNF-nin son illər ərzində maliyələşdirdiyi layihələrin monitorinqi prioritet istiqamətlərindən biri olmalıdır.
Koalisiyanın bu prioritet sahəsində aşağıdakı istiqamətlərdə fəaliyyəti məqsədə uyğun hesab edilir:

- ARDNF-nin son illər ərzində maliyyələşdirdiyi seçılmış layihələrin monitorinqi;
- ARDNF-nin büdcəsinin təhlili və qiymətləndirilməsi;
- Neft Fondunun idarəçiliyində olan maliyyə vəsaitlərinin yerləşdirilməsi, investisiyalara yönəldilməsi siyasətinin izlənməsi, təhlil edilməsi və hesabatлarın hazırlanması мərcədilə bütün tərəflərdən olan mütəxəssislərin iştirakı ilə ekspert qrupunun yaradılması;
- Neft fondu vəsaitlərinin xərcləmələri, tenderlərin və dövlət satınalmalarının şəffaflılığının artırılması məqsədilə monitorinq layihələrinin həyata keçirilməsi;
- Mədən sənayesində şəffaflığın artırılması və gəlirlərin səmərəli idarə edilməsi məqsədilə qanunvericiliyin ekspertizası və təkmilləşdirilməsi.

***3-cü Prioritet sahə: Azərbaycanda MSŞT-nin tətbiqinin dəyərləndirilməsi prosesində MSŞA Koalisiyasinin iştirakı***

MSŞT İdarə Heyətinin 27 sentyabr tarixli qərarı ilə növbəti ildən 15 namizəd ölkədə, o sıradan Aərbaycanda MSŞT tətbiqinin dəyərləndirilməsinə statr veriləcək. Bu qiymətləndirmənin nəticəsi növbəi dövr üçün strategiyanın formalaşdırılmasına əsaslar yaradaraq perspektiv baxımından əhəmiyyət kəsb edəcək. Odur ki, növbəti ildə Koalisiya beynəlxalq səviyyədə həyata keçirilən bu prosesin iştirakçısı olmaq üçün fəaliyyətlər həyata keçirəcək.

Bu fəaliyyət sferasında aşağıdakı tədbirlərin reallaşdırılması nəzərdə tutulur:

- Beynəlxalq dəyərləndirmə sahəsində mövcud olan tələbləri və metodologiyaların mənimsənilməsi, beynəlxalq Azərbaycanda tətbiqi sahəsində müzakirələrin təşkilinə nail olunması;
- Dəyərləndirmə məqsədilə indikatorların ışlənilməsi;
- Dəyərləndirmə predmetinə daxil olan məsələlər ətrafında ictimai müzakirələrin təşkil edilməsi;
- Dəyərləndirmə coğrafiyasına daxil olan region ölkələrinin (Qazaxıstan, Qirğızıstan, Monqolustan, Yəmən) vətəndaş cəmiyyətləri institutları ilə təcrübə mübadiləsinin aparılması;
- Dəyərləndirmə prosesinin icimai diqqətdə saxlanılmasına və onun şəffaf keçirilməsinə nail olunması.

***4-cü Prioritet sahə: Koalisiyadaxili və digər vətəndaş cəmiyyəti qurumları ilə əməkdaşlığın gücləndirilməsi və vəkillik fəaliyyətinin genişləndirilməsi***

Koalisiya üzvləri arasında keçirilmiş sorğunun nəticələrinə istinadən bu prioritet sahə üzrə 2008-ci ildə aşağıdakı fəaliyyətlərin reallaşdırılması nəzərdə tutulur:

- Vətəndaş cəmiyyəti imkanlarının səfərbər edilməsi, onların güc və bacarığının artırılması;
- Koalisiyanın 2007-ci il ərzində həyata keçirdiyi layihəlırin qiymətləndirməsi və illik fəaliyyətin yekunlarının dəyərləndirməsi üçün indikatorların işlənilməsi;
- Maarifləndirmə modullarının işlənilməsi və ekspert bankının yaradılması;
- Monitoqinq və sorğu metodologiyasının ışlənilməsi və qrupların formalaşdırılması;
- Vəkillik konsepsiyasının və qrupunun formalaşdırılması;
- Gənclər təşkilatları, tələbə ittifaqları ilə əməkdaşlılığın intensivləşdirilməsi onların Koalisiyaya dəstək qruplarına cevrilməsi istiqamətində birgə təşəbbüslərin artırılması;
- Vətəndaşların məlumatlılığı və neft gəlirlərinin səmərəli istifadəsinə maraqlarının artırılması kampaniyalarının keçirilməsi;
- Aidiyyatı dövlət orqanlarına, mədən sənayesində fəaliyyət göstərən şirkətlərə ictimai kampaniyalar və aksiyalar vasitəsilə təzyiqin artırılması;
- MHŞT üzrə hesabatların və onun auditinin nəticələrinin təhlili və ictimaiyyət üçün açıqlanması, bu istiqamətdə vəkillik fəaliyyətinin genişləndirilmsəi;
- Mədən sənayesində şəffaflığın artırılması və gəlirlərin səmərəli idarə edilməsi məqsədilə "Neft gəlirlərinin idarə edilməsi haqqında" Qanunun qəbul edilməsi məqsədilə vəkillik fəaliyyətinin qurulması.

***5-ci Prioritet sahə: Beynəlxalq və regional əməkdaşlıq.***

Bu prioritet sahə üzrə aşağıdakı ictimai və maliyyə qurumları ilə əməkdaşlıq vacib sayılır:

- MHŞT İdarə Heyəti və Katibliyi;
- PWYP Koalisiyası;
- MHŞT milli QHT Koalisiyaları;
- Dünya Bankı qrupu və MHŞT-ni dəstəkləyən digər beynəlxalq maliyyə qurumları.
- Avropa Şurası, Avropa Birliyi və Avropa Parlamenti institutları;
- MSHT-ni dəstəkləyən ölkə səfirlikləri

## 3. PRİORİTETLƏR ÜZRƏ MÜMKÜN FƏALİYYƏT NÖVLƏRİ

Prioritet sahələr üzrə konkret fəaliyyət növləri siyahısı MSŞT Memorandumunda tərəflərin vəzifələrinə, Koalisiya prioritetlərinin yeni formatına, ötən dövrlərdəki təcrübəyə, MSŞT-nin beynəlxalq sahədə inkişafı istiqamətləri və Koalisiya üzvlərinin ideyaları və təkliflərinə əsasən Koalisiyanın Şurası tərəfindən təsdiq edilir.

## 4. KOALİSİYA FƏALİYYƏTİNİN TƏMİN EDİLMƏSİ RESURSLARI VƏ PRİNSİPLƏRİ

Koalisiya Fəaliyyətini təmin edən insan resursları Koalisiya üzvlərindən və Koalisiya xaricindən cəlb edilən mütəxəssislərdən ibarət olacaq.

Fəaliyyətin müvəffəqiyyəti və miqyası tələb olunan maliyyənin əldə edilməsindən asılı olacaq. Bu maqsədlə beynəlxalq donor təşkilatları (Açıq Cəmiyyət İnstitutu, Oxfam Novib təşkilatı, Oxfam Novib  və sair), Dünya Bankı və digər maliyyə institutları, MHŞT-nün inkişafı üçün donor dövlətləri tərəfindən yaradılan xüsusi "Trast Fondu" ilə iş aparılacaq. QHT-lərə dövlət dəstəyi sahəsində mövcud olan mümkün maliyyə resurslarının əldə edilməsi imkanları nəzərdən keçiriləcək. Potensial donorlara onların seçiminə uyğun olaraq Ümumi Layihənin və ya fəaliyyət növləri siyahısı baxılmaq üçün təqdim ediləcək. Donor bu və ya digər fəaliyyət növlərini maliyyələşdirmək qərarını bildirdikdə ona həmin növlər üzrə konkret qrant layihəsi təqdim edilir..

Fəaliyyət aşağıdakı prinsiplərə əsaslanacaq:

- Fəaliyyət növlərinin Ümumi Qrant Layihəsində əks etdirilməsi;
- Ümumi Layihənin icrasına mümkün qədər çox sayda Koalisiya üzvlərinin cəlb edilməsi;
- Koalisiya daxilində əvvəlki dövrlərdə icra olunan fəaliyyətin effektivliyi, nəticələrinin nəzərə alınması.

Koalisiya üzvü bir qayda olaraq (müstəsna hallar əsaslandırılmalı və Şurada təsdiq edilməlidir) yalnız bir layihəyə rəhbərlik edə bilər.